**Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu**

# AZƏRBAYCAN RESPUBLİKASI

## PARLAMENT SEÇKİLƏRİ
## 7 noyabr, 2010-cu il

### ATƏT/DTİHB-İN EHTİYACLARIN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ MİSSİYASININ HESABATI

**21 - 24 iyun, 2010**

**Varşava**
**13 iyul, 2010-cu il**

# MÜNDƏRİCAT

**I. GİRİŞ** .......... **1**

**II. QISA İCMAL** .......... **1**

**III. ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR** .......... **3**

**A. ÜMUMİ MƏLUMAT** .......... 3
**B. HÜQUQİ ÇƏRÇİVƏ** .......... 4
**C. SEÇKİ ADMİNİSTRASİYASI** .......... 5
**D. KAMPANİYA MÜHİTİ** .......... 6
**E. MEDİA MÜHİTİ** .......... 7
**F. ŞİKAYƏTLƏR VƏ MÜRACİƏTLƏR** .......... 8
**G. YERLİ MÜŞAHİDƏÇİLƏR** .......... 9

**IV. YEKUNLAR VƏ TÖVSİYƏLƏR** .......... **9**

**ATƏT/DTIHB-NİN EHTİYACLARIN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ MİSSİYASININ GÖRÜŞLƏRİNİN SİYAHISI** .......... **10**

# AZƏRBAYCAN RESPUBLİKASI

# PARLAMENT SEÇKİLƏRİ
# 7 noyabr, 2010-cu il

## ATƏT/DTİHB-in Ehtiyacların Qiymətləndirilməsi üzrə Missiyasının Hesabatı

## I. GİRİŞ

Azərbaycan Respublikasının ATƏT-dəki Daimi Missiyası ATƏT-in öhdəliklərinə uyğun olaraq, 18 iyun tarixində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunu (ATƏT / DTİHB) 7 noyabr 2010-cu il tarixində keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün dəvət etdi. ATƏT/DTİHB 2010-cu il 21-24 iyun tarixlərində Azərbaycanda Ehtiyacların Qiymətləndirilməsi Missiyasını (EQM) həyata keçirmişdir. ATƏT / DTİHB-nin EQM Seçki Departamentinin Rəhbəri Nikolas Kajorovski və Baş Seçki Mütəxəssisi Conatan Stounstritdən ibarət olmuşdur.

ATƏT / DTİHB-nin EQM-nin məqsədi qarşıdakı parlament seçkiləri üçün hazırlıq vəziyyəti və səviyyəsini qiymətləndirmək və ATƏT / DTİHB-nin seçkilər üçün mümkün müşahidə fəaliyyətinin tətbiqi ilə bağlı məsləhətləşmələr aparmaq olmuşdur. ATƏT / DTİHB-nin EQM Bakıda hökumət orqanları, seçki administrasiyası, siyasi partiyalar, media, vətəndaş cəmiyyəti və diplomatik ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirmişdir (görüşlərin tam siyahısı üçün Əlavə 1-ə baxın).

ATƏT / DTİHB müşahidə üçün vaxtında dəvət etdiklərinə görə Xarici İşlər Nazirliyinə və öz fikirlərini EQM ilə bölüşmək üçün vaxt sərf etdiklərinə görə Mərkəzi Seçki Komissiyasına, Parlamentə, Prezident Administrasiyasına və bütün digər müsahiblərə öz təşəkkürünü bildirir. ATƏT/DTİHB göstərdiyi dəstək və köməkliyə görə ATƏT-in Bakı ofisinə minnətdarlığını bildirir.

## II. QISA İCMAL

Azərbaycanın tək kameralı parlamenti Milli Məclis 125 tək mandatlı seçki dairəsindən beş illik müddətə seçilir. Əvvəlki parlament seçkiləri 2005-ci ilin noyabr ayında keçirilmişdir. Parlament seçkiləri hələ rəsmi olaraq bəyan edilməmişdir, lakin konstitusiyaya uyğun olaraq, seçkilər bu il noyabr ayının ilk bazar günü keçirilməlidir.

Seçkilərin texniki təşkilini təkmilləşdirmək üçün tədbirlər görülsə də, Azərbaycan hələ də seçkilərin demokratik mühitinin yaxşılaşdırılmasında çətinliklərlə üzləşir. Xüsusilə, Bakının mərkəzində siyasi partiyaların müntəzəm olaraq toplaşmaq müraciətləri rədd edildiyindən, toplaşma azadlığı faktiki olaraq çox məhduddur. Həbslər, defamasiya üzrə məhkəmə prosesləri və jurnalistlər üzərində digər təzyiq formaları Azərbaycanda media azadlığını məhdudlaşdırır və demokratik seçki prosesinə xas olan ideyaların sərbəst ifadə edilməsi üçün əlverişli olmayan mühit yaradır.

Kiçik ictimai müzakirə ilə 2010-cu ilin iyun ayında Seçki Məcəlləsində mühüm düzəlişlər edildi. Düzəlişlərə əsasən, namizədlər üçün dövlət tərəfindən maliyyələşdirmə ləğv edildi və 2008-ci ilin iyun ayında aparılan düzəlişlərlə yarıya bölünmüş ümumi seçki müddəti kampaniya dövrü də daxil olmaqla, daha da qısaldıldı. Belə ki, 2005-ci il parlament seçkilərindən etibarən seçki kampaniyası üçün əlverişli olan vaxt müddəti 60 gündən 23

günə salındı. Rəsmi kampaniya dövrü yığıncaqlar və toplantılar keçirmək və kütləvi informasiya vasitələrində çıxış etmək imkanı nöqteyi-nəzərindən namizədlərə və partiyalara xüsusi hüquqlar verir. Seçkilər arasındakı müddətdə mülki və siyasi hüquqların icrası ilə bağlı mövcud maneələri nəzərə alaraq, Seçki Məcəlləsindəki son dəyişikliklər namizədlər və partiyaların öz fikirlərini seçicilərə çatdırmaq imkanını faktiki olaraq məhdudlaşdırır.

2005-ci il parlament seçkilərindən etibarən Seçki Məcəlləsinin təkmilləşdirilməsində, o cümlədən seçki prosesinə dövlət məmurları tərəfindən müdaxilənin qadağan edilməsi, şikayət və müraciətlərin nəzərə alınması üçün mütəxəssislərdən ibarət qrupun yaradılması və təkrar səsvermənin qarşısını almaq üçün seçicilərin barmaqlarının mürəkkəbə batırılması üzrə bəzi tədbirlər görülmüşdür. Lakin uzun müddətli tövsiyələrə baxmayaraq, digər mühüm məsələlərə, xüsusilə seçki komissiyasının tərkibi, nəticələrin ləğvi və hərbi səsvermə məsələlərinə baxılmamışdır.

Azərbaycanda seçkilər Mərkəzi Seçki Komissiyası (MSK), Dairə Seçki Komissiyaları və Məntəqə Seçki Komissiyalarından ibarət olan üç səviyyəli seçki administrasiyası tərəfindən həyata keçirilir. Seçki komissiyalarının tərkibi üçün formul çox mübahisəli məsələ olaraq qalır, çünki təcrübədə bu, hökumət tərəfdarı olan qüvvələrə bütün səviyyələrdə həlledici üstünlük verir və seçki administrasiyasının qərəzsizliyinə olan etimada xələl gətirir.

Seçkilər üçün hazırlıqlar 2010-cu ilin yanvar ayından etibarən davam etməkdədir və MSK aşağı səviyyəli komissiyalar üçün xüsusilə səsvermə və hesablanma, nəticələrin protokollarının doldurulması və müşahidəçilərin vəzifələri ilə bağlı təlimlər təşkil edir. Seçicilərin siyahısı yenilənmişdir və vətəndaşların düzəlişlər və əlavələri tələb etməsi üçün kifayət qədər imkanlar var. Seçici siyahısında seçicilərin sayı (4,829,888) 2008-ci il prezident seçkisi üçün mövcud olmuş rəqəmdən azdır. MSK 2005-ci il parlament seçkilərində olduğu kimi, namizədin qeydiyyatının daxil edilməsini təsdiqləmişdir.

Şikayətlərin və müraciətlərin nəzərə alınması əvvəlki seçkilərdə çatışmayan cəhət kimi müşahidə edilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsi bu yaxınlarda 2005-ci il seçkiləri ilə əlaqədar iş üzrə qərar çıxarmışdır ki, bu da namizədlər üçün seçki hüququnun təmin edilməsində məhkəmələr və seçki komissiyalarından həlledici üstünlüyə malikdir. MSK Seçki Məcəlləsində 2008-ci ildə aparılmış düzəlişlərə əsasən yaradılmış mütəxəssis qrupları, eləcə də şikayətlərin nəzərə alınması üçün daha əhatəli prosedurаların qarşıdakı seçkilərdə seçki mübahisələrinin həllini təkmilləşdirəcəyinə arxayındır.

ATƏT-in öhdəliklərinə uyğun olaraq, Azərbaycan yerli və beynəlxalq müşahidəçilərin iştirakını təmin edir. Bir neçə yerli təşkilat bəzi dairələrdə uzun müddətli müşahidə fəaliyyətlərinin həyata keçirilməsini planlaşdırır. Belə qruplardan biri, Seçkilərin Monitorinqi və Demokratik Tədqiqatlar Mərkəzinin təşkilat kimi qeydiyyatdan keçməsi qəbul edilməmişdir. Mərkəzin sələfinin qeydiyyatı 2008-ci il prezident seçkisindən əvvəl ləğv edilmişdir.

Bir çox müsahiblər qeyd etmişdir ki, qarşıdakı parlament seçkiləri üçün ATƏT / DTİHB-nin seçkiləri müşahidə fəaliyyəti faydalı ola bilər. Dövlət orqanlarının nümayəndələri seçki prosesinin tam şəffaf olacağını və ATƏT / DTİHB tərəfindən müşahidə və prosesin təkmilləşdirilməsi üçün təqdim edilən hər hansı potensial tövsiyələrin təqdir ediləcəyini vurğulamışlar. Digər müsahiblər seçkilər üçün əlverişsiz şərtlər və prosesin tam müşahidə edilməsi tələbatının olduğunu qeyd etmişdir.

Bu hesabatda göstərilən əldə edilən nəticələrə uyğun olaraq, ATƏT / DTİHB-nin EQM parlament seçkilərini müşahidə etmək üçün standart Seçkiləri Müşahidə Missiyasının (SMM) tətbiqini tövsiyə edir. ATƏT / DTİHB ATƏT-ə üzv Dövlətlərdən ölkədə kampaniya və seçki hazırlıqlarını izləmək üçün 30 uzun müddətli müşahidəçinin və seçki günü prosedurаlarını, o cümlədən səsverməni, səslərin sayılmasını və nəticələrin protokollarının doldurulmasını izləmək üçün 450 qısa müddətli müşahidəçinin ezam edilməsini tələb edəcək. ATƏT / DTİHB namizədlərin qeydiyyatı prosesinin izlənilməsi üçün mütəxəssislərin erkən fəaliyyətə başlamasını nəzərə ala bilər.

## III. ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR

### A. ÜMUMİ MƏLUMAT

Azərbaycan Respublikası icraedici hakimiyyətin Milli Məclisə (parlament) nisbətən daha geniş səlahiyyət həyata keçirdiyi güclü prezident sisteminə malikdir. Digər çoxsaylı öhdəlikləri və səlahiyyətləri ilə yanaşı, Prezident Nazirlər Kabinetini təyin edir, mərkəzi səviyyədə icra hakimiyyətini təyin edir və regionlarda icra səlahiyyətini həyata keçirən İcraedici Komitələrin başçılarını vəzifəyə təyin edir və vəzifədən azad edir və onların səlahiyyət dairəsini müəyyən edir.

Tək kameralı parlament beş illik müddət ərzində xidmət göstərən 125 deputatdan ibarətdir. Deputatlar 125 tək mandatlı dairədən nisbi üstünlüklə seçilirlər. Əvvəlki parlament seçkiləri 6 noyabr 2005-ci il tarixində keçirilmişdir. 2010-cu il seçkiləri Prezident tərəfindən hələ rəsmi olaraq bəyan edilməmişdir, lakin Konstitusiyada parlament seçkilərinin noyabr ayının ilk bazar günündə keçirilməsi göstərilir.

Yeni Azərbaycan Partiyası (YAP) ölkədə ən böyük partiyadır və parlamentdəki yerlərin çoxunu tutur (63 deputat). İkinci ən böyük parlament qrupu siyasi partiya ilə birləşməyən deputatlardan ibarətdir (45 deputat), baxmayaraq ki, təcrübədə bu "müstəqil" deputatlar çox vaxt iqtidar partiyasını dəstəkləyir. Parlamentdə təmsil olunan bir neçə başqa partiya da var ki, bunlardan ən böyüyü müxalifətçi Müsavat partiyasıdır (dörd deputat).[1]

Dövlət orqanları qeyd etmişdir ki, parlament seçkiləri Ermənistanla davam etməkdə olan münaqişə və Azərbaycan ərazisinin xeyli hissəsinin işğal olunduğu bir şəraitdə həyata keçiriləcək. Onlar bu vəziyyətin seçkilərin keçirilməsini, xüsusilə də, çox saylı məcburi köçkünlər (MK) üçün səsvermənin təşkilini mürəkkəbləşdirdiyini təkrarlayıblar.

ATƏT / DTİHB 1995-ci ildən etibarən Azərbaycanda bir sıra seçkiləri müşahidə etmişdir. ATƏT / DTİHB-nin ən son Seçkiləri Müşahidə Missiyası 15 oktyabr 2008-ci il prezident seçkisi üçün təyin edilmişdir. Missiya öz yekun hesabatında belə bir nəticəyə gəlmişdir ki, "prezident seçkisi ATƏT-in öhdəlikləri və digər beynəlxalq standartların təmin edilməsində əhəmiyyətli dərəcədə inkişafla xarakterizə olunsa da, xüsusilə seçki administrasiyasının bəzi texniki aspektləri ilə əlaqədar olaraq, seçki prosesi ATƏT-in bəzi öhdəliklərini təmin edə bilməmişdir. Seçki dinc mühitdə baş vermiş, lakin sağlam rəqabətin çatışmazlığı, canlı siyasi mühakimənin çatışmazlığı və məhdud media mühiti ilə xarakterizə olunmuş və buna

[1] Bundan başqa, xidmət müddəti tamamlanmaqda olan parlamentdə Vətəndaş Həmrəyliyi Partiyasından üç deputat, Ana Vətən partiyasından iki deputat, Ədalət, Azərbaycan Demokratik İslahatlar Partiyası, Vətəndaş Birliyi Partiyası, Böyük Quruluş Partiyası, Xalq Partiyası, Sosial Rifah Partiyası, Ümid Partiyası, və Bütöv Azərbaycan Xalq Cəbhəsi partiyalarının hərəsindən bir deputat təmsil olunur.

görə də, məqsədyönlü və plüralistik demokratik seçki üçün vacib olan prinsiplərdən bəzilərini əks etdirməmişdir”[2].

2008-ci ilin yekun hesabatında seçkilərin keçirilməsinin təkmilləşdirilməsi üçün bir sıra tövsiyələr öz əksini tapmışdır. Lakin əvvəlki seçki müşahidə missiyalarının yekun hesabatlarından fərqli olaraq, dövlət orqanları ATƏT / DTİHB-nin 2008-ci il hesabatının əldə edilən nəticələri və tövsiyələrinin müzakirə edilməsi təkliflərinə cavab verməmişdir. ATƏT-in Bakı ofisi qarşıdakı parlament seçkilərindən əvvəl siyasi dialoqu gücləndirmək üçün bu yaxınlarda seçki məsələləri ilə bağlı bir sıra dəyirmi masa görüşləri təşkil etmişdir.

## B. HÜQUQİ ÇƏRÇİVƏ

Seçki Məcəlləsi Azərbaycanda seçkiləri tənzimləyən əsas qanundur və bu məcəlləyə bir neçə dəfə düzəlişlər edilmişdir. Prezident administrasiyasının təklifinə əsasən 2005 və 2008-ci ildə Məcəlləyə düzəlişlər edilmişdir ki, bu düzəlişlərdən bəzilərində ATƏT / DTİHB və Avropa Şurasının Venesiya Komissiyası tərəfindən irəli sürülmüş əvvəlki tövsiyələr nəzərə alınmışdır. 2008-ci il düzəlişləri seçki prosesində müdaxilənin qadağan edilməsi, şikayətlər və müraciətlərin nəzərə alınması üçün mütəxəssis qruplarının yaradılması və təkrar səsvermənin qarşısının alınması üçün seçicilərin barmaqlarının mürəkkəbə batırılmasını əhatə etmişdir. Lakin 2008-ci ildə bir neçə digər düzəlişlər edilmişdir ki, bunlar müsbət hesab edilə bilməz, bu düzəlişlərə seçki kampaniyası müddətinin 50 faizdən də çox qısaldılması daxildir.[3]

2010-cu ilin iyun ayında Parlament Məcəlləyə YAP deputatları tərəfindən təklif edilən düzəlişləri qısa müddətdə qəbul etdi. Bu düzəlişlərə əsasən, seçki müddəti 75 gündən 60 günə salınaraq daha da qısaldıldı və kampaniya müddəti isə daha 20 faiz azaldılmaqla 28 gündən 23 günə salındı. YAP ATƏT / DTİHB-nin EQM-nə seçki müddəti və kampaniya müddətinin seçki xərclərini azaltmaq və digər ölkələrin təcrübələri ilə uyğunlaşmaq üçün qısaldıldığını bildirmişdir. Müxalifət partiyaları və vətəndaş cəmiyyəti qrupları kampaniya müddətinin qısaldılmasını öz fikirlərini seçicilərə çatdırmaq üçün onsuz da məhdud imkanlara malik olan partiyalar üçün növbəti məhdudiyyət kimi tənqid ediblər (bax Kampaniya Mühiti və Media Mühiti Bölmə D və E). Onlar, həmçinin bu əsaslı düzəlişlərin seçki müddətinin başlanmasından az əvvəl kiçik ictimai müzakirələrlə edilməsi faktını tənqidlə qarşılayıblar.

Düzəlişlərə əsasən, həmçinin kampaniya xərcləri üçün dövlət tərəfindən maliyyələşdirmə şərtləri ləğv edilmişdir. YAP hər partiyaya düşən pul məbləğinin (təxminən 200 Avro) kampaniyanı dəstəkləmək üçün cüzi olduğunu və pulun ciddi olmayan namizədliklər üçün stimul rolunu oynadığını qeyd etmişdir. YAP həmçinin qeyd etmişdir ki, 2005-ci ildə dövlət tərəfindən maliyyələşdirilmə hüququnun çatması üçün kifayət qədər seçici dəstəyi (verilən səslərin üç faizi) almayan namizədlərin əksəriyyəti pulu kompensasiya edə bilməmişdir. Digər müsahiblər qeyd etmişdir ki, dövlət tərəfindən kampaniyaların maliyyələşdirilməsi əslində az olsa da, məbləğ xüsusilə Bakıdan kənarda cüzi olmamışdır. Bundan başqa onlar qeyd etmişdir ki, digər tədbirlər, o cümlədən kompensasiya almaq həddinə çatmış namizədlərə yönəldilmiş maliyyə dəstəyinin təmin edilməsi həyata keçirilə bilər.

[2] ATƏT / DTİHB-nun Seçkiləri Müşahidə Missiyasının Azərbaycan Respublikasında 15 oktyabr 2008-ci il tarixli Prezident Seçkisi ilə bağlı Yekun Hesabatı, www.osce.org/odihr-elections/32175.html.

[3] Bax: Azərbaycan Respublikasının Seçki Məcəlləsinə Düzəlişlər və Dəyişikliklər haqqında Qanun Layihəsi üzrə Birgə Rəy, CDL-AD(2008)011, 16 iyun 2008; və Azərbaycanın Seçki Məcəlləsinə Düzəlişlər haqqında Yekun Rəy, CDL-AD(2005)029, 25 oktyabr 2005. Hər iki sənəd www.osce.org/odihr-elections/13447.html internet səhifəsində təqdim edilir.

Qanuna edilən düzəlişlərin bu yaxınlarda qəbulu ilə təmin edilən imkanlara və bəzi deputatların təşəbbüslərinə baxmayaraq, 2008-ci ildən etibarən dövlət orqanları ATƏT / DTİHB-nin və Venesiya Komissiyasının davamlı tövsiyələrinin mövzusu olan mühüm hüquqi məsələləri, xüsusilə seçki komissiyasının tərkibi üçün formul, hərbi səsvermənin keçirilməsi və nəticələrin ləğv edilməsi məsələlərini nəzərə almayıblar.

## C. SEÇKİ ADMİNİSTRASİYASI

Seçki administrasiyası üç səviyyədən ibarətdir: Mərkəzi Seçki Komissiyası (MSK), 125 Dairə Seçki Komissiyaları (DSK), və 5100-dən artıq Məntəqə Seçki Komissiyaları (MənSK). Seçki komissiyaları aşağıdakı formula əsasən siyasi qüvvələrin parlamentdə təmsil edilməsi əsasında tərtib edilir: komissiya üzvlərinin üçdə biri çoxluq təşkil edən partiya, üçdə biri azlıq təşkil edən partiyalar və üçdə biri müstəqil deputatlar tərəfindən təklif edilir. Bu formul çox mübahisəli məsələ olaraq qalır, çünki təcrübədə bu, hökumət tərəfdarı olan qüvvələrə bütün komissiyalarda həlledici üstünlük verir və seçki administrasiyasının qərəzsizliyinə olan etimada xələl gətirir. Bu vəziyyət hər komissiyanın sədrinin iqtidar partiyasını təmsil etməsi kimi hüquq norması ilə daha da ağırlaşır. Müsavat partiyası 2005-ci ildən bəri seçki komissiyalarının tərkibi üçün formula qarşı etiraz olaraq öz nümayəndələrini təyin etməkdən imtina etdiyinə görə, ATƏT / DTİHB-nin EQM-nin vaxtında MSK tam təsis edilməmişdir (MSK 18 üzvdən 16-na malik idi). Aşağı səviyyələrdə seçki komissiyaları heyətlə tam təchiz edilmişdir.

MSK ATƏT / DTİHB-nin EQM-nə məlumat vermişdir ki, parlament seçkiləri üçün hazırlıq ilin əvvəlindən davam etməkdədir və seçki müddətinin qısaldılması seçki administrasiyasının işinə mənfi təsir etməyəcək. MSK aşağı səviyyəli komissiyaların təlimi, təlimatların və seçicilər haqqında informasiyanın hazırlanmasına başlamışdır. MSK qeyd etmişdir ki, komissiyanın təlim və informasiya fəaliyyətləri xüsusilə vətəndaşları öz seçici qeydiyyatı məlumatlarını yoxlamaq üçün təşviq etməyə, prosesdə icra və bələdiyyə orqanları tərəfindən müdaxilənin qarşısını almağa, ailə səsverməsinin qarşısını almağa və MənSK-ları tərəfindən səs saymanın keçirilməsinin təkmilləşdirilməsinə istiqamətlənir.

Seçici siyahısının yenilənməsi 2010-cu ilin may ayında yekunlaşdırılmışdır və seçicilərin öz qeydiyyatını yoxlaması və düzəlişlər və əlavələri tələb etməsi üçün imkanlar kifayət qədərdir. Seçici siyahıları MənSK-larında yoxlanıla bilər və vətəndaşlar həmçinin öz qeydiyyatlarını MSK-nın internet səhifəsi, telefon vasitəsilə və ya DSK-larında yoxlaya bilərlər. MSK-nın seçici siyahılarının təsdiq edilməsi haqqında qərarında Azərbaycanda 4,829,888 qeydiyyata alınmış seçicinin olduğu göstərilir. Bu say 2008-ci il prezident seçkisi üçün seçici siyahılarında olan 4,927,561 rəqəmindən azdır. Seçicilər seçki gününə qədər və seçki günü daxil olmaqla seçici siyahısına əlavə edilə bilərlər.

MSK seçici siyahılarına əsasən hər beş ildən bir dairələrin sərhədlərinin müəyyən edilməsi üçün məsuliyyət daşıyır və bu, axırıncı dəfə 2005-ci ilin seçkilərindən əvvəl həyata keçirilmişdir. Seçici siyahısının yenilənməsindən sonra bəzi dairələrdəki seçicilərin sayı qanunla yol verilən orta saydan beş faizlik yayınmadan (istisna hallarda on faiz) çox və ya azdır[4]. MSK dairələrin sərhədlərinin yekun müəyyənləşdirilməsinin hələ də davam etməkdə olduğu haqqında ATƏT / DTİHB-nin EQM-nə məlumat vermişdir.

Namizədin qeydiyyat müddəti parlament seçkiləri rəsmi təyin edildikdən sonra başlayır. Hər potensial namizəd qeydiyyata alınmış seçicilərin 450 imzasını təqdim etməlidir və

[4] Bax www.infocenter.gov.az/v3/index.php

seçicilərin birdən artıq namizədin xeyrinə imza etməsinə yol verilmir. Seçkilər üçün qısaldılmış vaxt müddətində partiyalar və namizədlərin dəstəkləyici imzaları toplamaq və tələb olunan sənədləri təqdim etmək üçün daha az vaxtı olacaq. Həmçinin DSK-larının namizədlərin təyin edilməsini nəzərdən keçirmək və imzaları yoxlamaq üçün vaxtı azdır, lakin MSK bu cəhətdən heç bir çətinlik olmayacağını qeyd etmişdir. Onlar həmçinin 2005-ci il parlament seçkilərində olduğu kimi, namizədin qeydiyyatının daxil ediləcəyini və potensial namizədlərin öz ərizələrindəki hər hansı səhvləri düzəltmək üçün kifayət qədər imkanlarının olacağını təkrarlayıblar.

Ermənistanla davam etməkdə olan münaqişəyə görə, seçiciləri MK olan doqquz dairə var. Bu seçicilər Azərbaycan ərazisində pərakəndə yerləşməklə bu dairələr üçün seçkilərin təşkilini daha da mürəkkəbləşdirirlər. Seçki Məcəlləsinə əsasən parlament seçkiləri üçün seçki günündə Azərbaycandan kənarda olan qeydiyyatdan keçmiş seçicilərin iştirakı istisna edilir, prezident seçkiləri üçün isə ölkədən kənarda səsvermə təşkil edilir.

MSK qeyd etmişdir ki, bu seçkilər üçün hərbi səsvermənin təşkilinin dəyişdirilməsi ilə bağlı heç bir plan yoxdur. Qanuna uyğun olaraq, hərbi seçicilər ümumilikdə bir neçə istisna ilə mülki səsvermə məntəqəsində səs verməlidirlər. Lakin əvvəlki seçkilərdə hərbi səsvermə əsasən hərbi bazalarda keçirilmişdir, çünki təcrübədə hərbi qüvvələr hansı hissələrin istisna qaydalar altına düşdüyünü müəyyən edir. ATƏT / DTİHB əvvəllər qəti məhdud olan istisnalarla hərbi personalın mülki səsvermə məntəqələrində səs verməsini tövsiyə etmişdir.

## D. KAMPANİYA MÜHİTİ

Bir sıra müsahiblər qeyd etmişdir ki, Azərbaycan seçkidən əvvəlki dövrdə əsas azadlıqların icrası ilə bağlı mühüm çətinliklərlə üzləşməkdə davam edir. 2008-ci ildə olduğu kimi, toplaşma azadlığı və birləşmə azadlığı üzərində olan məhdudiyyətlər və media mühitinə görə siyasi partiyalar və vətəndaşların öz siyasi görüşlərini sərbəst ifadə etmək imkanlarına qoyulan məhdudiyyətlər qeyd edilmişdir. Onlar, həmçinin kampaniya müddətinin qısaldılmasının və kampaniyanın dövlət tərəfindən maliyyələşdirilməsinin ləğvinin onların öz fikirlərini seçicilərə çatdırmaq imkanının qarşısına əlavə maneələr çıxaracağı ilə bağlı narahatlıqlarını ifadə ediblər. Buna baxmayaraq, ATƏT / DTİHB-nin EQM-nin görüşdüyü bütün müxalifət partiyaları ya ayrılıqda, ya da partiya blokları olaraq seçkilərdə iştirak etmək niyyətlərini qeyd ediblər.

2008-ci ildə yeni Dinc Toplaşma haqqında Qanunun qəbul edilməsinə baxmayaraq, vətəndaşların beynəlxalq standartlara uyğun tərzdə toplaşma azadlığı üçün konstitusiya ilə təmin olunan hüquqlarının icrası ciddi məsələ olaraq qalır. Bakının mərkəzində toplantılar, nümayişlər və digər toplaşma formaları üçün icazələrdən müxtəlif səbəblərə görə davamlı olaraq imtina edilir və icazəsiz keçirilən toplaşmalar hüquq mühafizə orqanları tərəfindən tez bir zamanda dağıdılır. Bakının icra hakimiyyəti orqanları toplaşmalara yalnız şəhər kənarlarında xüsusi yerlərdə icazə verir. Müxalifətdən olan siyasi partiyaların nümayəndələri regionlarda da dinc yolla toplaşma üçün buna bənzər maneələrin mövcud olduğunu qeyd etmişdir.

Müxalifətdən olan bir neçə siyasi partiya qeyd etmişdir ki, 2005-ci ilin parlament seçkilərindən bəri onların hələ də Bakıda ofis yerləri yoxdur və fəaliyyətləri regionlarda davamlı məhdudlaşdırılır. Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbəri Əli Kərimliyə 2005-ci ildən etibarən pasport verilmədiyindən o, xaricə səfər edə bilmir.

2005-ci ilin parlament seçkilərində yerli icra hakimiyyəti orqanları və digərlərinin seçki prosesinə müdaxilə etməsinə görə mühüm problemlər olmuşdur. ATƏT / DTİHB-nin tövsiyəsinə cavab olaraq, seçki prosesinə müdaxilənin qadağan edilməsi 2008-ci ildə Seçki Məcəlləsinə daxil edilmişdir. Namizədlərin qeydiyyatının ləğv edilməsi də həmçinin 2005-ci ildə ATƏT / DTİHB-nin Seçkiləri Müşahidə Missiyasının müəyyən etdiyi mühüm problemlərdən olmuşdur. Qeydiyyatın ləğv edilməsi üçün əsaslar tövsiyə edildiyi kimi azaldılmasa da, 2008-ci ildə Seçki Məcəlləsində müsbət düzəliş edilməklə, yalnız seçki qanunvericiliyinin pozulmasına görə qüvvədə olan məhkəmə hökmü və ya qərarının olduğu halda namizədin qeydiyyatının ləğv edilməsinin mümkünlüyü təmin edilmişdir. Lakin, 2008-ci ilin sonunda aparılmış düzəlişlərdə namizədlər üçün xəbərdarlıqlara bəzi istinadlar qanundan çıxarılmışdır. ATƏT / DTİHB-nin EQM-nə bunların təkrarlanma hallarını aradan qaldırmaq üçün texniki dəyişikliklər olduğu və 113.1 Maddəsinə əsasən digər cəza tədbirləri görülməzdən əvvəl qanun pozuntularına görə namizədlərə xəbərdarlıq edilməsinin tələb olunduğu haqqında məlumat verilmişdir.

## E. MEDİA MÜHİTİ

Media mühiti də həmçinin mühüm diqqət sahəsidir. Yerli əhatə dairəsi ilə bir neçə televiziya stansiyasının olmasına baxmayaraq, seçki dövründən kənarda müxtəlif siyasi fikirlərin elektron kütləvi informasiya vasitələrində vətəndaşlar üçün əlverişliliyi çox məhduddur. Bir çox müsahiblər ATƏT / DTİHB-nin EQM-nə məlumat vermişdir ki, Dövlət Televiziyası digər siyasi iştirakçıları faktiki istisna etməklə, dövlət orqanları və iqtidar partiyasının fəaliyyətlərini geniş və müsbət əhatə etməkdə davam edir, və bəzi özəl televiziya stansiyalarına edilən təzyiqlər özünü senzura ilə nəticələnir. Müxalifət rəhbərləri və onların fikirləri televiziyada çox nadir hallarda nümayiş etdirilir. İctimai televiziya xəbərlərin tarazlı əhatəsini təmin etmək istiqamətində bəzi cəhdlər göstərir və hər həftə siyasi məsələlər haqqında verilişlər nümayiş etdirir; lakin ictimai televiziyanın Baş Direktoru müxalifət rəhbərləri üçün birbaşa efir vaxtının təmin edilmədiyini qeyd etmişdir.

Çap kütləvi informasiya vasitələri bəzi müxalifət yönümlü və ya müstəqil qəzetlərlə daha fərqlidir. Lakin bunlar az tirajlıdır və regionlarda geniş əlverişliliyə malik deyil. 2008-ci ildən bəri Azad Avropa Radiosu / Azadlıq Radiosu, Amerikanın Səsi və BBC artıq FM radiosunda dinləyicilər üçün əlverişli deyil.

Həbslər, defamasiya üzrə məhkəmə prosesləri və jurnalistlər üzərində digər təzyiq formaları Azərbaycanda media azadlığına hələ də təsir edir və demokratik seçki prosesinə xas olan ideyaların sərbəst ifadə edilməsi üçün əlverişli olmayan mühit yaradır. ATƏT / DTİHB-nin EQM-nin vaxtında qəzet redaktoru Eynulla Fətullayev haqqında Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən dərhal azadlığa buraxılma qərarının verilməsinə baxmayaraq, hələ də həbsxanada saxlanılırdı.[5] ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi Cənab Fətullayevə qarşı işi "ATƏT-in mətbuat azadlığı üzrə öhdəliklərinin kobud surətdə pozulması" kimi ifadə etmişdir.[6] O, həmçinin iki internet bloqçusu Emil Abdullayev və Adnan Hacızadənin istehzalı bildirişlərə cavab olaraq saxtalaşdırılmış kimi görünən ittihamlar üzrə həbsini tənqid etmişdir.[7]

---

[5] Avropa İnsan Hüquqları Məhkəməsi, *Fətullayev Azərbaycana qarşı Məhkəmə İşi,* Hökm, 22 aprel 2010, www.echr.coe.int/ECHR/EN/Header/Case-Law/Hudoc/Hudoc+database/. bənd 175

[6] ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin 1 noyabr 2007-ci il tarixli bəyanatı, www.osce.org/fom/item_1_27685.html. Həmçinin bax www.osce.org/fom/item_1_42272.html və www.osce.org/fom/item_1_43601.html. 30 dekabr 2009-cu il tarixli və 22 aprel 2010-cu il tarixli bəyanatlar.

[7] ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin 10 sentyabr 2009-cu il tarixli bəyanatı, www.osce.org/fom/item_1_39507.html.

Ümumi media mühitini nəzərə alaraq, 1990-cı il tarixli Kopenhagen Sənədində göstərildiyi kimi, medianın bütün partiyalar və namizədlər üçün sərbəst əlverişliliyinin olub-olmaması sual altındadır. Ən azı 60 dairədə iştirak edən siyasi partiyaların İctimai Televiziyada sərbəst efir vaxtı və Dövlətə məxsus olan qəzetlərdə sərbəst yerə hüququ çatır. Lakin Seçki Məcəlləsində edilən son dəyişikliklər partiyaların sərbəst efir vaxtı / yer üçün nəzərdə tutulan vaxt müddətini daha da azaldır. 2008-ci ildə Seçki Məcəlləsinə edilən düzəlişlər Dövlət Televiziyasının seçki kampaniyasına cəlb olunmasını istisna etməklə, seçki kampaniyası ilə bağlı informasiyanın başlıca mənbəyini aradan qaldırmışdır. Ötən seçkilərdə televiziya stansiyalarının əksəriyyəti kampaniya ilə bağlı xəbər verilişlərində iqtidar partiyası və Dövlət orqanlarının xeyrinə məlumat vermişdir.

Ödənişli siyasi elanlara icazə verilir, lakin müsahiblər qeyd etmişdir ki, həm xərclərin yüksək olması, həm də kütləvi informasiya vasitələrinin həmin elanları yayımlamaqdan imtina etməsinə görə, əvvəllər bundan geniş istifadə edilməmişdir. Lisenziyası bir neçə dəfə - ən son olaraq 2005-ci il parlament seçkilərindən sonra dayandırılan özəl televiziya stansiyası ANS bu yaxınlarda Milli Televiziya və Radio Şurasından iki xəbərdarlıq aldığını qeyd etmişdir. ANS üçüncü xəbərdarlığın və lisenziyasının mümkün dayandırılması və ya geri alınması riskinin baş verməsini istəmədiyindən, elanların təklif edilməsini planlaşdırmır və kampaniyanın əhatə edilməsində ehtiyatlı davranacağını qeyd etmişdir.

## F. ŞİKAYƏTLƏR VƏ MÜRACİƏTLƏR

Seçkilərlə bağlı şikayətlər və müraciətlərin həll edilməsi 2005-ci il parlament seçkilərində, eləcə də əvvəlki seçkilərdə böyük problem olmuşdur. ATƏT / DTİHB-nin Seçkiləri Müşahidə Missiyasının 2005-ci ilin seçkiləri ilə bağlı Yekun Hesabatında şikayətlərə çox vaxt baxılmadığı və ya şikayətlər haqqında seçki komissiyaları tərəfindən qeyri-şəffaf yolla qərar verildiyi müəyyən edilmişdir. Həmçinin, seçki günündən sonra məhkəmələrdə işə baxılarkən hüquqi çərçivə və iddiaçılar tərəfindən təqdim edilən dəlillər geniş surətdə nəzərə alınmamışdır. Həmin seçkilərdə namizədə qarşı qaldırılan məhkəmə işində Avropa İnsan Hüquqları Məhkəməsi "Cari işdə …. seçki komissiyaları və məhkəmələrin davranışının və onların müvafiq qərarlarının ərizəçinin seçkidə namizədliyini irəli sürmək hüququnun müdafiəsi üçün hər hansı həqiqi marağın olmadığını göstərdiyini" müəyyən etməklə ərizəçinin xeyrinə qərar vermişdir.[8]

ATƏT / DTİHB-nin verdiyi tövsiyələrə qismən cavab olaraq, MSK və DSK-ları daxilində mütəxəssislərdən ibarət qrupun yaradılmasını təmin etmək üçün 2008-ci ildə Seçki Məcəlləsində düzəlişlər edilmişdir. Mütəxəssislərdən ibarət qruplar şikayətlərin araşdırılması və müvafiq komissiyaya hesabat vermək üçün məsuliyyət daşıyırlar.

Mütəxəssis qruplarının tərtib edilməsi üçün qaydalar MSK tərəfindən müəyyən edilir və təcrübədə bu qruplar bütünlüklə komissiya üzvləri və heyətindən ibarətdir və müstəqil mütəxəssislər bu qruplara daxil edilmir. Onların tərkibi seçki komissiyalarının şikayət və müraciətlərə cavab vermək imkanını artırmadığından, onların səmərəliliyi hələ müşahidə edilməlidir.[9] MSK ATƏT / DTİHB-nin EQM-nə məlumat vermişdir ki, mütəxəssis qruplarının işi bütün maraqlı tərəflər, o cümlədən vətəndaş cəmiyyəti üçün açıq olacaq. MSK mütəxəssis qrupları və daha əhatəli prosessual normaların gələcək seçkilərdə şikayətlər və müraciətlərin həllini təkmilləşdirəcəyinə inandığını qeyd etmişdir. ATƏT /

---

8 Avropa İnsan Hüquqları Məhkəməsi, Namat Əliyev Azərbaycana qarşı Məhkəmə İşi, Hökm, 8 aprel 2010, www.echr.coe.int/ECHR/EN/Header/Case-Law/Hudoc/Hudoc+database/, bənd 90

9 ATƏT / DTİHB və Venesiya Komissiyasının Birgə Rəyi, 2008, bənd 45, sitat gətirilən işdə "Azərbaycanda dövlət orqanları qeyd etmişdir ki, seçki hüquqlarının müdafiəsi üçün səmərəli prosesin təmin edilə bilməməsinin başlıca səbəbi seçki komissiyalarının qanuni hüquqların qiymətləndirilməsinin əsaslanacağı faktları inkişaf etdirmək imkanının olmamasıdır".

DTİHB-nin EQM şikayətlər və müraciətlərin məhkəmələr tərəfindən nəzərə alınmasını təkmilləşdirəcək hər hansı dəyişikliklərin edilib-edilmədiyini müəyyənləşdirə bilməmişdir.

## G. YERLİ MÜŞAHİDƏÇİLƏR

ATƏT-in öhdəliklərinə uyğun olaraq, Azərbaycan yerli və beynəlxalq müşahidəçilərin əlçatanlığını təmin edir. Bir neçə yerli təşkilat ən azı bir neçə dairədə uzun müddətli müşahidə fəaliyyətlərinin həyata keçirilməsini planlaşdırır. Belə qruplardan biri, Seçkilərin Monitorinqi və Demokratik Tədqiqatlar Mərkəzinin (SMDTM) təşkilat kimi qeydiyyatdan keçməsi qəbul edilməmişdir; mərkəzin işi hal-hazırda Ali Məhkəmədədir. Qeydiyyat sənədlərində kiçik səhvlərin olmasına görə, Mərkəzin sələfi, Seçkilərin Monitorinqi Mərkəzinin hüquqi qeydiyyatı 2008-ci ilin prezident seçkisindən əvvəl ləğv edilmişdir; bu iş hal-hazırda Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında öz həllini gözləyir. Verilən məlumatlara görə, bir neçə vətəndaş cəmiyyəti qrupları yerli icra hakimiyyəti orqanlarının təzyiqinə görə, regionlarda bəzi şəhərlərdə görüşlər və təlimlərin təşkil edilməsində çətinliklərlə üzləşirlər.

# IV. YEKUNLAR VƏ TÖVSİYƏLƏR

Bir çox müsahiblər qeyd etmişdir ki, qarşıdakı parlament seçkiləri üçün ATƏT / DTİHB-nin seçkiləri müşahidə fəaliyyəti faydalı ola bilər. Dövlət orqanlarının nümayəndələri seçki prosesinin tam şəffaf olacağını və ATƏT / DTİHB tərəfindən müşahidə və prosesin təkmilləşdirilməsi üçün təqdim edilən hər hansı potensial tövsiyələrin təqdir ediləcəyini vurğulamışlar. Digər müsahiblər seçkilər üçün əlverişsiz şərtlər və prosesin tam müşahidə edilməsi tələbatının olduğunu qeyd etmişdir.

Yuxarıda göstərilən əldə edilən məlumatlara uyğun olaraq, ATƏT / DTİHB-nin EQM parlament seçkilərini müşahidə etmək üçün standart Seçkiləri Müşahidə Missiyasının (SMM) tətbiqini tövsiyə edir. ATƏT / DTİHB ATƏT-ə üzv Dövlətlərdən ölkədə kampaniya və seçki hazırlıqlarını izləmək üçün 30 uzun müddətli müşahidəçinin və seçki günü prosedurlarını, o cümlədən səsverməni, səslərin sayılmasını və nəticələrin tərtib edilməsini izləmək üçün 450 qısa müddətli müşahidəçinin ezam edilməsini tələb edəcək. ATƏT / DTİHB namizədlərin qeydiyyatı prosesinin izlənilməsi üçün mütəxəssislərin erkən fəaliyyətə başlamasını nəzərə ala bilər.

ATƏT / DTİHB ictimaiyyətin seçki prosesinə etimadını artırmaq üçün Azərbaycanın dövlət orqanlarını bu hesabatda qeyd edilən məsələlərin, xüsusilə, toplaşma azadlığının təmin edilməsi, media mühitinin təkmilləşdirilməsi və seçki komissiyalarının tərkibi ilə bağlı məsələlərin həll edilməsi üçün tədbirlər görməyə çağırır.

## ƏLAVƏ

## ATƏT/DTIHB-NİN EHTİYACLARIN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ MİSSİYASININ GÖRÜŞLƏRİNİN SİYAHISI

### Rəsmi nümayəndələr

Mahmud Məmməd-Quliyev, Xarici İşlər Nazirinin Müavini
Məzahir Pənahov, MSK-nın Sədri
Səfa Mirzəyev, Parlament aparatının rəhbəri
Şahin Əliyev, Hüquqi Şöbənin Rəhbəri, Prezident Administrasiyası

### Siyasi partiyaların nümayəndələri

İqbal Ağazadə, Ümid Partiyası
Əli Əhmədov, Yeni Azərbaycan Partiyası
İsa Qəmbər, Müsavat Partiyası
Sərdar Cəlaloğlu, Azərbaycan Demokratik Partiyası
Əli Kərimli, Azərbaycan Xalq Cəbhəsi Partiyası

### Media nümayəndələri

İsmayıl Ömərov, İctimai Televiziyanın Baş Direktoru (İTV)
Vahid Mustafayev, ANS TV-nin Prezidenti
Mehman Əliyev, Turan Xəbər Agentliyi
Emin Hüseynov, Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu
Ələsgər Məmmədli, Beynəlxalq Tədqiqat və Mübadilə Şurası (IREX)

### Seçkilərlə əlaqəli vətəndaş cəmiyyəti qrupları

İntiqam Əliyev, Hüquqi Təhsil Cəmiyyəti
Mirəli Hüseynov, Demokratik Təhsil İctimai Birliyi
Anar Məmmədli, Seçkilərin Monitorinqi və Demokratik Tədqiqatlar Mərkəzi

### Beynəlxalq ictimaiyyət

Səfir Bilge Cankorel, ATƏT-in Bakı ofisinin rəhbəri
Cekyulayn Karpenter, ATƏT-in Bakı ofisi, Demokratlaşma Bölməsinin Rəhbəri
Piter Bums, Belçika Səfirliyi, Birinci Katib
Katrin Kliv, Britaniya Səfirliyi, İkinci Katib
Ceymi Smis, Amerika Birləşmiş Ştatlarının Səfirliyi, Siyasi Məmur
Bricet Baçit, Amerika Birləşmiş Ştatlarının Səfirliyi, Siyasi Məmurun Müavini
Cerom Ponz, Avropa Nümayəndə Heyəti, Siyasi, İqtisadi, Mətbuat və İnformasiya şöbəsinin rəhbəri
Filip Uiber, Fransa Səfirliyi, Birinci Katib
Cənab Aleks Qriqoryevs, Milli Demokratiya İnstitutu